**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**QEYRİ - HÖKUMƏT TƏŞKİLATLARINA**
**DÖVLƏT DƏSTƏYİ ŞURASININ KATİBLİYİ**

AZ1000, Bakı şəhəri,
Fikrət Əmirov küçəsi 1, 2-ci mərtəbə

Tel./Faks: (+994 12) 493 17 32
(+994 12) 493 17 80

№ 205 «08» iyun 2015 il

## AİDİYYATI ORQANA TƏQDİM ETMƏK ÜÇÜN

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 iyul tarixli 2288 nömrəli Sərəncamına uyğun olaraq yaradılıb. Şura dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın təşviqi və Qeyri-Hökumət Təşkilatlarına dövlət dəstəyinin həyata keçirilməsi sahəsində ixtisaslaşmış orqan funksiyasını yerinə yetirir.

Şura olaraq, biz "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi ("Ümid" SİD İB),Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası (VƏHML), "Konstitusiya" Araşdırmalar Fondu (KAF) ilə sıx əməkdaşlıq edirik.

Biz təsdiq edirik ki,

1. "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi("Ümid" SİD İB) akktiv və şəffaf şəkildə fəaliyyət göstərən milli qeyri-hökumət təşkilatlarından biridir. Təşkilat əhalinin aztəminatlı təbəqələrinə onların əsas ehtiyaclarının ödənilməsində, sosial problemlərinin həllində, təhsil şəraitinin yaxşılaşdırılmasında yardım edən, icmaların inkişafında, əhali üçün iqtisadi imkanların yaradılmasında, kəndlərin sosial-iqtisadi problemlərinin həllində öz gücünü səfərbər edən ixtisaslaşmış müstəqil birlikdir. Təşkilat tərəfindən "Təşkilati davranış" və "Korporativ Sosial Məsuliyyət" adlı dərs vəsitləri hazırlanmışdır.

2. "Konstitusiya" Araşdırmalar Fondu (KAF) Azərbaycanda vətəndaş cəmiyyəti və demokratik-hüquqi dövlətin möhkəmlənməsi, demokratik

institutların və dəyərlərin inkişaf etdirilməsi sahəsində böyük təcrübəyə malikdir. KAF korporativ sosial məsuliyyət adlı dərs vəsitinin "Korporativ Sosial Məsuliyyətin Tənzimlənməsi" bölməsini hazırlamışdır.

3. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası (VƏHML) Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında ən fəal iştirak edən qeyri-hökumət təşkilatlarından biridir.Təşkilat əsas missiyası kimi ölkənin sosial sferasında insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində hüquqi, ictimai, maarifləndirici və vəkillik fəaliyyətlərini layiqincə həyata keçirməkdədir.

"Ümid" SİD İB Azərbaycanın əksər regionlarında icmalarla iş aparılması sahəsində, KAF şəffaflıq, korrupsiya ilə mübarizə siyasətinin hazırlanması və icrası sahəsində, VƏHML isə sosial məsələlər, sosial və əmək hüquqlarının qorunması, təminatı sahəsində ən qabaqcıl təcrübəyə malikdirlər.

Şura olaraq, biz bu üç təşkilatın "Sosial məsələlərdə icma əsaslı təşkilatların rolunun artırılması" adlı layihə təklifi üzrə maliyyə və texniki təminatını dəstəkləməyə hazırıq.

**Hörmətlə,**

**İcraçı direktor** **Fərasət Qurbanov**